Sima İSMAYILOVA
*Biblioqrafiyaşünaslıq kafedrasının dosent əvəzi, pedaqogika üzrə fəlsəfə doktoru*

# ƏDƏBİYYATŞÜNASLİQ ÜZRƏ ELMİ-KÖMƏKÇİ BİBLİOQRAFİKRESURS

*Açar sözlər: ədəbiyyatşünaslıq, biblioqrafik resurs, elmi-köməkçi biblioqrafiya*
*Ключевые слова: литературоведение, библиографический ресурс, научно-вспомогательнаябиблиография*
*Keywords: literary science, bibliographic resource, scientific-supporting bibliography*

*Məqalədə Azərbaycan biblioqrafiyaşünaslığın tərkib hissəsi hesab olunan ədəbiyyatşünaslığa dair elmi-köməkçi biblioqrafik resursların əhəmiyyəti şərh olunmuşdur.*

Giriş: Azərbaycan milli biblioqrafiyasının mühüm tərkib hissəsini ədəbiyyatşünaslıq biblioqrafiyası təşkil edir. Respublikamızda ədəbi-bədii biblioqrafik informasiya fəaliyyətinin uzun bir dövr ərzində qazandığı təcrübə və əldə etdiyi nailiyyətlər aydın şəkildə sübut edir ki, ədəbi-bədii biblioqrafik proses respublikamızda ədəbi mühütin və kitabxana-biblioqrafiya fəaliyyətinin ayrılmaz üzvi sahəsi kimi cəmiyyətdə ədəbi-bədii əsərlərin təbliğinə, insanların bədii zövqünün formalaşmasına və ədəbiyyatşünaslıqsahəsində aparılan elmi-tədqiqat işlərinin kitabxana-informasiya təminatına təsir göstərmişdir.

Ədəbi-bədii biblioqrafik resursun yaradılmasında ciddi addımlar atılmış, xalqımızın bədii ədəbiyyat, ədəbiyyatşünaslıq və milli biblioqrafiya tarixində əlamətdar hadisələrə çevrilən uğurlu biblioqrafik tədqiqatlar meydana gəlmiş, yeni biblioqrafik mərkəzlər yaradılmış, bu sahədə mütərəqqi ənənələr formalaşmışdır.

Azərbaycanda bədii ədəbiyyat və ədəbiyyatşünaslıq sahəsindəki biblioqrafik informasiya prosesləri milli ədəbiyyatımızın mühüm yaradıcılıq məsələləri ilə əlaqəli surətdə inkişaf etmiş, onun məzmun, forma və ədəbi əhatəlik xüsusiyyətlərində baş verən kəmiyyət və keyfiyyət dəyişikliklərini əsasən əks etdirə bilmişdir.

Məsələnin qoyuluşu

Respublikamızda dinamik və daim yenilənən ədəbi-bədii biblioqrafik fəaliyyət, bu sahədə informasiya tələbatçılarına təqdim edilən rəngarəng biblioqrafik vəsaitlər cəmiyyətdə bədii əsərlərin təbliğində, ədəbiyyat tarixi və nəzəriyyəsinə dair aparılan elmi-tədqiqat işlərində müvəffəqiyyətlə istifadə edilir.



İnformasiya istifadəçilərinin biblioqrafik informasiya tələbatlarının xüsusiyyətlərinə, məqsədlərinə uyğun olaraq elmi-köməkçibiblioqrafiyanın inkişafında iki istiqamətformalaşmışdır:

Cari elmi-köməkçi biblioqrafiya

Retrospektiv elmi-köməkçi biblioqrafiya.

Bədii ədəbiyyat və ədəbiyyatşünaslıq sahəsində nəzərə çarpacaq qədər biblioqrafik mənbələrmövcuddur ki, bu mənbələr haqqındabiblioqrafik vəsaitlərdən məlumatəldətmək mümkündür. Bir çox biblioqrafik mənbələr öz aktuallığını qoruyub saxlamışvəbiblioqrafikaxtarış zamanı fəal surətdə istifadə olunur. Bədii ədəbiyyat və ədəbiyyatşünaslığa dair biblioqrafik resurs o qədər zəngin və çoxşaxəlidir ki, bunlara yazıçı və şairlərin həyat və fəaliyyətini əks etdirən elmi-köməkçi xarakterli şəxsibiblioqrafik vəsaitlər, ədəbiyyatşünaslığın ən aktual mövzularına həsr olunmuş mövzu biblioqrafik göstəriciləri, ədəbi mətn biblioqrafiyasını, ədəbidiyarşünaslıqvəsaitləri, dövri və ardı davam edən biblioqrafik mənbələrintərkibini açanbiblioqrafik mənbələri, yazıçı və ədəbi xadimlərinşəxsi arxivini əks etdirənarxiv materiallarının təsviri kimi biblioqrafik mənbələr bu qəbildəndir.

Ədəbiyyatşünaslıq üzrə biblioqrafik resursun müasir inkişafı aşağıda göstərilən ənənələrəsasında xarakterizə olunur:

Biblioqrafiyalaşdırmanın xarici nəşrlərin, elektron nəşrlərin qeydiyyatı ilə obyektinin genişləndirilməsi;

1.Mütəxəssisləri - filoloqlar, tənqidçilər üçün biblioqrafik vəsaitlərin hazırlanmasında fəal iştirakı – bununla əlaqədar xüsusi dövrü ədəbiyyatşünaslıq nəşrləri, kollektiv nəşrlər, monoqrafiyalarda daha dəqiq, ünvanlı informasiyanın verilməsi;

2.Biblioqrafik məhsul yaradan kollektivin çoxcəhətliliyi, biblioqrafik vəsaitçap edən nəşriyyatların əhatə dairəsinin genişlənməsi. Ənənəvi biblioqrafik mərkəzlərdən başqa biblioqrafik vəsaitlər ədəbiyyat, cəmiyyət və birlikləri, Ədəbiyyat muzeyləritərəfindən tərtib olunub nəşr edilmişdir.

3.Müstəqil surətdəyaradılmış biblioqrafik vəsaitlərin sayının azalması;

4.Müasir ədəbi prosesinbiblioqrafik əks etdirməsininkitabxanalardan və biblioqrafik mərkəzlərdən tədricən ədəbi-tənqidi jurnal və internet saytlarına keçməsi. (6)

Problemin təhlili

Ədəbiyyatşünaslıq üzrəcari biblioqrafik resurs 3 mərhələdə ( siqnal, referativ, baxış)yerinə yetirilir. Cari biblioqrafiya yeni meydana gələn sənədlər haqqında ardıcıl məlumat vermək (və onların biblioqrafik qiymətləndirilməsi) funksiyasını yerinə yetirir, daha doğrusu tələbatçılara öz sahələrindəsənəd axınını daim izləməkvə bu axindahərtərəfli istiqamətləndirmək imkanı yaradır. Bu vəzifə xüsusiyyəti cari biblioqrafik informasiyanın dolğunluğunu və opera-

tivliyini sənədin meydana gəlməsi ilə informasiya çatdırılması arasındakı fasilənin minimuma endirilməsinə səy göstərilməsini tələb edir.

Cari biblioqrafik informasiya mənbələrinin yaradılmasınınvə tələbatçıya çatdırılmasının dövrüliyi məsələsi böyük əhəmiyyətə malikdir.Cari biblioqrafik məlumatverməgündəlik, həftəlikvərüblük ola bilər.

Cari elmi-köməkçi biblioqrafik resursdan bəhs edərkən qeyd etmək lazımdır ki, elmin bu sahəsi üzrə çoxsaylı biblioqrafik informasiya mənbələri olsa da, çox təssüf ki, ədəbiyyatşünaslıq üzrə müstəqil nəşr mövcud deyildir. Elmin bu sahəsi üzrə cari biblioqrafik resursancaq ümumi xarakterli biblioqrafikinformasiya mənbələrinintərkibində tələbatçılara çatdırılır. Müasir dövrdə biblioqrafiya sosial-iqtisadi inkişafın ən mühüm cəhətlərini əks etdirir və bununla da elmin, mədəniyyətin və istehsalın bütün sahələrinin biblioqrafik informasiya ilə təminatına şərait yaradır.

Biblioqrafiyanın xidmət sahələri müxtəlifdir. Hər xidmət sahəsinin məqsəd və vəzifələri, spesifik cəhətləri var və onlar biblioqrafiyalaşdırma və biblioqrafik xidmət proseslərinin həyata keçirilməsinə təsir göstərir. Biblioqrafik informasiya xidmətinə ehtiyacı olan ən mühüm sahələrdən biri elmi-tədqiqat fəaliyyətidir. Əgər biblioqrafik informasiya tələbatçılarını ən fəal və fəal olmayan qruplara bölmək mümkün olsa onda elmi-tədqiqat işçiləri ən fəallardan hesab edilə bilər. Həm də bu fəallıq bir neçə cəhətdən səciyyəvidir. Birincisi, ona görə ki, elmi-tədqiqat işi ilə məşğul olanlar həmişə axtarışdadırlar, sənəd axınınıardıcıl izləməyə və mövcud sənəd toplusunu araşdırmağa məcburdurlar. İkincisi, onları təkcə yerli nəşrlər deyil, həm də dünya elminin nailiyyətlərini işıqlandıran sənədlər maraqlandırır. Üçüncüsü, onlarən yeni materiallar haqqında daha dolğun, ardıcıl və operativ biblioqrafikinformasiya almaq marağındadırlar.(3)

Ədəbiyyatşünaslığın elmi-tədqiqat fəaliyyət sahəsinin biblioqrafik informasiya təminatında AzərbaycanMilli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanasının fəaliyyəti təqdirə layiqdir. MEK-nın çap etdirmiş olduğucari biblioqrafik informasiya mənbələri fonda daxil olan yeni ədəbiyyat haqqında informasiya vermək məqsədi güdür. Məlumdur ki, kitabxananın fonduna xarici ədəbiyyat da alınır. Ona görə də bu vəsaitlər bir tərəfdən yeni çıxan vətən, digər tərəfdən isə kitabxananın fonduna daxil olan xarici ölkə ədəbiyyatını əks etdirir. Kitabxananın hazırlayıb çapdan buraxdığı vəsaitləri ədəbiyyat əhatəliyinə görə iki qrupa bölmək olar:

Yeni daxil olan ölkə ədəbiyyatı haqqında;

Xarici ölkələrdən daxil olan yeni ədəbiyyat haqqında.

Bunlar həm də biblioqrafiyalaşdırmanın bilavasitə obyektinin forma əlamətinə görə fərqləndirilir, yəni kitablar və dövri mətbuatı ayrı-ayrılıqda əhatə edirlər.

Qeyd etdiyimiz kimi kitabxananın birinci qrup cari biblioqrafik vəsaitləri



ölkə nəşrlərini əhatə edir. Kitabxana şəraitində operativ cari biblioqrafik informasiyaverməiki istiqamətdə aparıla bilər. Birincidə məqsəd oxucuları ümumən yeni, onlar üçün maraqlı nəşrlərdən xəbərdar etmək, ikincidə isəyalnız məlum kitabxananın fonduna daxil olan əsərlərhaqqında oxuculara biblioqrafik informasiya verməkdir. AMEA-nın Mərkəzi Elmi Kitabxanasında hazırlanan cari biblioqrafik informasiy mənbələri bir qayda olaraq fonda daxil olan yeni ədəbiyyatla əlaqədardır.

M.F.Axundov adına AzərbaycanMilli Kitabxanasının biblioqrafik fəaliyyətində cari elmi-köməkçi biblioqrafik nəşrlərdə tərtib olunub nəşr edilir. Bu biblioqrafik nəşrlər içərisində son dövrlərinbiblioqrafik vəsaitləri olan“Birillik Azərbaycan Kitabiyyatı” və “Yeni kitablar: annotasiyalı ədəbiyyat göstəricisi” kimi ümumi cari elmi-köməkçi informasiya mənbələrielmin digər sahələri kimi, ədəbiyyatşünaslığa dair sənəd kütləsini əks etdirir.

Bədii ədəbiyyat və ədəbiyyatşünaslıq sahəsində nəzərə çarpacaq qədər biblioqrafik informasiya mənbələri mövcuddur. Bu mənbələr haqqında biblioqrafik vəsaitlərdən məlumat əldə etmək mümkündür. Bir çox biblioqrafik mənbələr öz aktuallığını qoruyub saxlamışdlr və biblioqrafik axtarış zamanı istifadə olunur. Bədii ədəbiyyat və ədəbiyyatşünaslıq üzrə biblioqrafik resurs çox zəngin və çoxşaxəlidir. Bunlara – retrospektiv ümumi və şəxsi, ədəbi diyarşünaslıq, ədəbi mətn, yazıçı və şairlərin, həmçinin ədəbi xadimlərin həyat və fəaliyyətini işıqlandıran biobiblioqrafik lüğətlər, yazıçı və şairlərin şəxsi arxivi əsasında tərtib edilmiş “Arxiv materiallarının təsviri”, Azərbaycanda dövrü mətbuatın ümumi retrospektiv göstəriciləri daxildir.

Müasir dövrdə Azərbaycan ədəbiyyatının müxtəlif dövrlərinin inkişafı üzrə fundamental ümumi ədəbi biblioqrafik vəsaitlər yaradılmışdır ki, bunlar folklor və folklorşünaslıq mənbələrini əks etdirən“Azərbaycan folklor kitabı”, ayrı-ayrı yazıçı və şairlərin həyat və fəaliyyətini əks etdirənşəxsi elmi-köməkçi biblioqrafik (ənənəvi vəelektron) resurslar yaradılmışdır. Eyni zamanda görkəmli ədəbiyyat xadimlərinin məlumat bazaları da yaradılmışdır. Məsələn, Mir Cəlal Paşayevin, Nizami Gəncəvinin, Teyyub Qurbanın, Aşıq Ələsgərin, M.F.Axundzadənin, F.B.Köçərlinin, M.Ə.Sabirin və başqalarının.

Ədəbiyyatşünaslıq üzrə elmi-köməkçi biblioqrafik resursun mühüm bir hissəsini təşkil edənməlumat nəşrləri bunlardır:

Ümumi ədəbi:

Ensiklopedik nəşrlər – ensiklopediyalar və ensklopedik lüğətlər;

Bioqrafik və biblioqrafik lüğətlər;

Terminlər, sitat və s. lüğəti;

Ədəbi personaj, obraz, qəhrəmanların lüğəti;

Ədəbi arxiv üzrə bələdçilər;

Ədəbi xronika, salnamə, sinxronik cədvəllər.

Şəxsi:

Şəxsi ensklopedik nəşrlər;
Yazıçıların həyat və yaradıcılığıhaqqında salnamələr;
Yazıçıların dili haqqında lüğətlər;
Yazıçıların şəxsi kitabxanalarının təsviri (kataloq);
Yazıçıların arxiv və əlyazmalarının təsviri (kataloq);
Memorial ədəbi muzeylər üzrə bələdçilər.(6)

Zəngin ədəbiyyatşünaslıq elminin biblioqrafik və faktoqrafik informasiya təminatında soraq-məlumat nəşrləri mühüm yer tutur. Bu cəhətdən Makuli Pənahinin tərtib etdiyi "Ədəbi məlumat cədvəli", Teymur Əhmədovun "Azərbaycanyazıçıları", Əziz Mirəhmədovun"Ədəbiyyatşünaslıq terminləri lüğəti"diqqətə layiqdir.

M.Pənahi tərəfindən tərtib olunmuş"Ədəbi məlumat cədvəli"on məşhur şərq mənbəyinə əsaslananbuməlumatnəşriklassikbiblioqrafik mənbələrdən-təzkirələrdən istifadə edənədəbiyyatşünas tədqiqatçı alimlərin elmi-tədqiqat fəaliyyətinə kömək məqsədilə yaradılmışdır. Cədvəl Azərbaycan dilində tərtib olunsa da məlumat metodikiaparata 3 dildə (Azərbaycan, rus, ingilis) tərtib olunmuşdur.

Tədqiqatçılar üçün ərəb və fars əlifbası ilə yazılmış mənbələrin araşdırılması çətin olduğundan, cədvəlbu çətinliyi aradan qaldırır, ilkin mənbələrdə pərakəndə şəkildə düzülməsindən asılı olmayaraq cədvəl əlifba sırası ilətərtib olunaraq axtarışı asanlaşdırır, həmçinin əsərin mətn formasında deyil, cədvəl şəklində tərtibi sorğuların daha tez səmərəli, bitkin və hərtərəfli ödənilməsinə şərait yaradır. Cədvəldəki məlumatlar on mənbəyə əsasən təhlil edilərək uyğunsuzluqlar müqayisəli şəkildə izah edildiyi üçün cədvəlolduqca dəqiq xarakter daşıyır. Cədvəlin tərtibi zamanı şairlərin təxəllüsləri əsas götürülmüş, adı və atasının adı ondan sonra yazılmışdır. Təxəllüsü olmayan şairlərin adı əsas götürülərək əlifba sırası ilə yazılmışdır.Titullar isə addan sonra mötərizə içərisində yazılmışdır. Cədvələ daxil edilən yazıçı və şairlərinən məşhur əsərlərigöstərilmişdir. Cədvəldə istifadə edilən mənbələr, yəni təzkirələr xronoloji qaydada düzülmüşdür. Cədvəlin əhəmiyyətli cəhətlərindən biri dəondadırki, məlumdur ki, təzkirələrdə tarixlər hicri təqvimlə verilir, cədvəldəisə həmin tarixlər həm hicri, həm də miladitarixə çevrilərək göstərilmişdir. Cədvəldə adları çəkilən şair və yazıçıların "təxəllüsü, adı və atasının adı, doğulduğu il, vəfat etdiyi, doğulduğu yer, vəfat etdiyi yer, hansı dillərdəəsərlər yazmışdır, məlumat hansı mənbədən götürülmüşdür"hamısı qeyd olunmuşdur.

Ensiklopedikxarakterli məlumat nəşrində-"ədəbi məlumat cədvəli", "kitabda adı çəkilən qadın şairlər", "ikidildə şeir yazan şairlər", " şairlərin əsrlər üzrə təsnifatı" kimi bölmələrverilmiş, cədvəldən axtarışı asanlaşdırmaq üçün ərəb dilində"Adlar siyahısı"köməkçi aparatı tərtib olunmuşdur.



VI-XXəsr ərzində yazıb yaradan şairləri əhatə etməkləböyük bir dövrü əks etdirən və 5711 şair haqqında məlumat verən cədvəl tələbatçılar üçün olduqca zəngin məlumat mənbəyidir.(4)

Ədəbiyyatşünaslıq üzrə soraq-məlumat nəşrlərindən biri də "Azərbaycan yazıçıları" adlıbiobiblioqrafik lüğətiqeyd etmək olar. Biobiblioqrafik lüğət xarakterli bu məlumat mənbəyiədəbiyyatşünas alim, professor, peşəkar jurnalist Teymur Əhmədov tərəfindən tərtib edilərərk 1985-ci ildə"Önər" nəşriyyatında nəşr edilmişdir. Biblioqrafik vəsaitəxalq yazıçısı M.İbrahimov "Faydalı kitab" başlığı altında məzmunlu müqəddimə yazmışdır. Müəllifbu vəsaiti ensklopedik xarakterdə tərtib edərək yazıçı və şairlrin tərcümeyi-halı, hansı əsərləri yazdığı, onların nəşr tarixi, başqa dillərə tərcüməsi haqqında, onların ünvanını, telefon nömrəsini də istifadəçilərə çatdırmışdır. Vəsaitdə hər bir yazıçının qısa bioqrafiyası ilə yanaşı, yaradıcılığının ən səciyyəvi cəhəti də qeyd olunmuşdur. Eyni zamandamaterialların əks olunması seçmə xarakter daşıyır və hər bir müəllifinyaradıcılığı dolğunluqla əks etdirilmişdir.

"Azərbaycanyazıçıları"biobiblioqrafik lüğətin daha təkmilləşmiş ikinci nəşri 1995-ci ildə nəşr edilmişdir. İkinci nəşrə müqəddimə AMEA-nın müxbir üzvü Əziz Mirəhmədov tərəfindən yazılmışdır. Bu mənbədə respublikada və ondan kənarda yaşayan 800-dən artıq yazıçı, tərcüməçi, redaktor, alim, nasir vəədəbi şəxsiyyətlər haqqında məlumat verilmişdir. İkinci nəşrə 325 yazıçıilk dəfədaxil edilmişdir.(2)

"Azərbaycan yazıçıları" ensiklopedik məlumat kitabınındaha da təkmilləşdirilmiş üçüncü nəşri bütünlükdə XX əsri əhatə edir. Bu əsrdə Azərbaycan ədəbiyyatı son dərəcə zəngin, çoxcəhətli, sıx əlaqəli olması ayrı-ayrı ədəbi şəxsiyyətlərin parlaq, ictimai fəaliyyəti, bədii yaradıcılığı ilə səciyyələnir. Bu kitab 2004-cü ildə Nurlan nəşriyyatında çapdan çıxmışdır. Bu nəşr XXəsr Azərbaycan yazıçılarınınhəyat və yaradıcılığı haqqında ensklopedik məlumat toplusudur. "Azərbaycan yazıçıları" ensiklopedik məlumat kitabı Azərbaycan ədəbiyyatının ədəbi-mədəni irsi ilə maraqlanan hər kəs üçüçn qiymətli mənbədir. Məlumat kitabı – "Fundamental ədəbi salnamə" (Kamal Talıbzadə), "Faydalı kitab" (Mirzə İbrahimov), "Yazıçı ömrünün salnaməsi" (Əziz Mirəhmədov ) "Ön söz əvəzi" (T.Əhmədov) bölmələrindən ibarətdir. Ensiklopedik məlumat kitabı bütöv bir əsrdə həmin mərhələyə mənsub yazıçıların nəsli içərisindəki dəyişiklikləri, inkişafı əks etdirir. Ensklopedik nəşrin 1995-ci il nəşri əgər 887-yə qədər yazıçını əhatə edirdisə, yeni nəşrdə bir sıra texniki qüsurlar aradan qaldırılmış, haqqında məlumat verilən yazıçıların sayı iki dəfədən çox artırılmışdır. Müəllif bəzi məlumatları təkmilləşdirmiş, dəqiqləşdirmiş, müasir ədəbi prosesi ayrı-ayrıyazıçıların yaradıcılıqları ilə əlaqələndirmişdir. "XX əsr Azərbaycan yazıçıları" kitabının əhəmiyyətini artıran cəhətlərdəb biri də XX əsr Azərbaycan mühacir ədəbiqüvvələrini də əhatə etmişdir. (1)

Ədəbiyyatşünaslığın soraq-məlumat xarakterli nəşrlərindən biri də ədəbiyyatşünas alim Ə.Mirəhmədov tərəfindən tərtib olunmuş" Ədəbiyyatşünaslıq terminləri lüğəti"dir. XX əsrin 50-60-cı illərində ədəbiyyat nəzəriyyəsinə və terminologiyasına aid əsərlərin, məlumat kitablarının və sahəvi lüğətlərinazərbaycan dilində nisbətən azlığı respublikamızda bu sahəyə ehtiyacıdaha da artırmışdır. "Ədəbiyyatşünaslıq terminləri lüğəti"nin 1957-ci ildə birinci nəşri bu sahədə ilk addımlardan idi. Müəllif dünya ədəbiyyatı terminləri ilə yanaşı məhz azərbaycan klassik və şifahi xalq ədəbiyyatının ümumiyyətlə, Yaxın və Orta Şərq ədəbiyyatına aid olan terminlərin izahına lüğətdə daha geniş yer verilmişdir. İstifadəçilərin sorğularını hərtərəfli ödəmək üçün bəzi terminlər ətraflı izah edilmişdir. Lüğətin 1978-ci il nəşri daha da təkmilləşdirilmiş və "Maarif" nəşriyyatında çap olunmuşdur. Lüğətdə dünya klassik və müasir ədəbiyyatına, xüsusilə Azərbaycan bədii söz sənətinə aid terminlər və anlayışların izahı verilmişdir. Terminlərin izahında tarixi-xronoloji prinsip gözlənilmiş, lüğətə tövsiyə annotasiyası yazılmışdır. Ədəbiyyat tarixi, ədəbiyyat nəzəriyyəsi və ədəbi-tənqid sahəsinə aid bədii uydurma, dünya ədəbiyyatı, ədəbi surətlər, ədəbiyyatın tərbiyəvi və bu kimi beynəlxalq səciyyəli terminlər də lüğətdə ilk dəfə izah olunur. Həmçinin SSRİ xalqları ədəbiyyatına və xarici ədəbiyyata dair də yeni əlavələr edilmişdir. Bütün bu əlavələr nəticəsində lüğətdə beş yüz qırx üç terminin izahı verilmişdir. Əvvəlki kiki yaradıcılıq metodlarından, ədəbi formalarından, janr və növlərindən bir çoxunun izahı, tarixi aspektdə verilir, onların müasir dünya ədəbiyyatında, xüsusilə çox millətli sovet ədəbiyyatında və onun qüvvətli qollarından biri olan Azərbaycan söz sənətində nə kimi mövqetutduğu məna, keyfiyyətcə dəyişib-dəyişilmədiyi göstərilir. Bəzi terminlərin izahı xeyli dəqiqləşdirilmiş, gətirilən bir çox misallar başqaları ilə əvəz olunmuş, yaxud əvvəlki misallara yeniləri də əlavə edilmişdir. İzahı xeyli genişləndirilmiş terminlərdən – Bayatı, Vadevil, Qərb Tədris Mərkəz, Qərb Tədris, Divan, Ədəbi əlaqələr, Əruz vəzni, Publisistika, Təcnis, Ustadnamə və s. qeyd etmək olar.(5)

Ədəbiyyatşünaslığa dair soraq-məlumat nəşrləri elmin bu sahəsi üzrə ümumielmi-köməkçi biblioqrafik resursun mühümtərkib hissəsi olmaqla, sahə mütəxəssislərinin biblioqrafik informasiya təminatında əhəmiyyətli rol oynamaqdadır.

## ƏDƏBİYYAT

1.Əhmədov T. XX əsr Azərbaycanyazıçıları: ensklopedik məlumat kitabı (təkmilləşdirilmiş III nəşri).-B.:Nurlan, 2004.-984s.
2.Əhmədov T. Azərbaycanyazıçıları:ensklopedik məlumat kitabı.-B.:Önər, 1995.-864s.
3.Əliyev Z.H. Azərbaycan Respublikasıərbaycanda elmi-köməkçi biblioqrafiya müasir mərhələdə // Bakı UniversitetininXəbərləri: Humanitar elmlər seriyası .-1994.-№ 1.-S.120-122.



4.İsmayılova S.P. Azərbaycanda bədii ədəbiyyat və ədəbiyyatşünaslıq üzrə sənəd kütləsi biblioqrafiyalaşdırma obyekti kimi.-B.:BDU, 2008.-66s.
5.Mirəhmədov Ə.Ədəbiyyatşünaslıq terminləri lüğəti.-B.:Maarif, 1978.-199s.
6.Справочникбиблиографа/науч.ред.Г.Ф.Гордукалова, Г.В.Михеева.-4-е изда.Санкт Ретервург:Професия, 2014.-768с.

С. Исмайылова

## НАУЧНО-ВСПОМОГАТЕЛЬНАЯ БИБЛИОГРАФИЧЕСКИЙ РЕСУРС ПО ЛИТЕРАТУРОВЕДЕНИЕ

### РЕЗЮМЕ

В статье рассматриваетсяразвитию научно-вспомогательной библиографие в Азербайджане, освещена роток информасионнойресурс по литературоведение как часть общий библиографический ресурс.

S.Ismayilova

## SCİENTİFİC-SUPPORTİNG BİBLİOGRAPHİC RESOURCE ON LİTERARY SCİENCE

### S U M M A R Y

This article gives general information about scientific-supporting bibliography in Azerbaijan and illuminates the bibliographic resource on literary science as an important constituting part of general bibliographic resource.